# AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

**№ 70** **Bakı şəhəri, 27 fevral 2020-ci il**

## Ümumi təhsil müəssisələrində psixoloq ştatının sayının müəyyən edilməsi haqqında

"Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1532-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 may tarixli 711 nömrəli Fərmanının 1.1.11-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Dövlət və bələdiyyə ümumi təhsil müəssisələrində psixoloq ştatının sayı aşağıdakı kimi müəyyən edilsin:

1.1. şagird sayı 1000-dək olduqda, 1 vahid;

1.2. şagird sayı 1000-dən 3000-dək olduqda, 2 vahid;

1.3. şagird sayı 3000-dən çox olduqda, 3 vahid.

**2.** Özəl ümumi təhsil müəssisəsində psixoloq ştatının sayı həmin təhsil müəssisəsinin ali idarəetmə orqanı tərəfindən müəyyən olunur.

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının***
***Baş Naziri***

Xalq qəzeti 2020.- 1 mart.- S.3.